**Dövlət Statistika Komitəsində "Heydər Əliyevin həyat və fəaliyyəti – gənclərə bir örnək və nümunə" mövzusunda seminar təşkil edilmişdir**



Azərbaycan Respublikası Prezidentinin 2013-cü il 21 yanvar tarixli 2679 nömrəli Sərəncamı ilə təsdiq edilmiş "Azərbaycan xalqının ümummilli lideri Heydər Əliyevin 90 illik yubileyi haqqında Tədbirlər Planı"nın 11-ci bəndinin icrasının təmin edilməsi məqsədilə Dövlət Statistika Komitəsində aprel ayının 25-də "Heydər Əliyevin həyat və fəaliyyəti-gənclərə bir örnək və nümunə" mövzusunda seminar təşkil edilmişdir.

Tədbirdə Dövlət Statistika Komitəsinin aparatı şöbələrinin və tabeliyində olan qurumların gənc mütəxəssisləri iştirak etmişlər. Tədbiri giriş sözü ilə açan Dövlət Statistika Komitəsinin Birləşmiş Həmkarlar İttifaqı Komitəsinin sədri Elbrus Quliyev tədbirin əhəmiyyətindən danışmışdır. O vurğulamışdır ki, seminar ümummilli lider Heydər Əliyevin 90 illik yubileyi ərəfəsində keçirilir və onun unudulmaz xatirəsinə həsr olunur. Sonra söz Dövlət Statistika Komitəsi sədrinin köməkçisi Elnur Əliliyə verilmişdir. Əlili öz çıxışında Ümummilli lider Heydər Əliyevin müdrikliyi, siyasi iradəsi, uzaqgörən siyasəti nəticəsində Azərbaycanın inkişafı üçün gördüyü mühüm işlərdən bəhs etmişdir.



Tədbirdə Dövlət Statistika Komitəsinin gənc mütəxəssisləri Elmin Aslanov və Müzəffər Rüstəmov ulu öndərin Vətənimiz üçün gördüyü işlərlə bağlı məruzələrlə çıxış etmiş, bu dahi şəxsiyyətin Azərbaycan dövlətçiliyinin möhkəmləndirilməsində, iqtisadiyyatımızın inkişafında əvəzsiz xidmətlərindən danışmışlar.



